**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# CƏNUBİ QAFQAZDA HƏRBİ MÜNAQİŞƏLƏR VƏ İNSAN TƏHLÜKƏSİZLİYİ PROBLEMİ

İxtisas: 5901.01 – "Beynəlxalq münasibətlər"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Aygün Mirzə qızı Qurbanova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | Siyasi elmlər doktoru, professor<br>**Elçin İldırım oğlu Əhmədov** |
| Rəsmi opponentlər: | Siyasi elmlər doktoru, professor<br>**Hicran Kamran qızı Hüseynova** |
| | Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent<br>**Elvin Bəhruz oğlu Talışinski** |
| | Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent<br>**Ləman Zahid qızı Qarayeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya Şurasının sədri:<br>________________ | Akademik<br>**Ürxan Kazım oğlu Ələkbərov** |
| Dissertasiya şurasının elmi katibi:<br>________________ | Siyasi elmlər doktoru, dosent<br>**Sevda Ağamirzə qızı Əliyeva** |
| Elmi seminarın sədri:<br>________________ | Siyasi elmlər doktoru, dosent<br>**Adil Mirabdulla oğlu Mirabdullayev** |

# I DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Tarixən təhlükəsizlik anlayışı dövlətlərin suverenliyinin və ərazi bütövlüyünün xarici hərbi təhdidlərdən qorunmasını nəzərdə tuturdu. Bu milli təhlükəsizlik konsepsiyası 1990-cı ilə qədər təhlükəsizlik siyasətinin formalaşmasında üstünlük təşkil etmişdir. Lakin 1990-cı illərdən etibarən, dünya siyasətçiləri təhlükəsizliyi daha geniş, qeyri-hərbi formada düşünməyə başladı. Təhlükəsizliyin əsas referenti kimi şəxsiyyətə diqqət yetirməklə insan təhlükəsizliyi konsepsiyası ənənəvi dövlət mərkəzli təhlükəsizlik anlayışına qarşı çıxdı. Belə ki, insan təhlükəsizliyi anlayışı dövlətlərin deyil, fərdlərin təhlükəsizliyini önə çəkdi. İnsan təhlükəsizliyi anlayışı insan inkişafı kimi ideyaların təsiri ilə təhlükə anlayışını genişləndirmək və dərinləşdirmək cəhdi kimi meydana çıxdı.

Nəticədə, 1990-cı illərdə daha çox önəm verilən "insan təhlükəsizliyi" anlayışı bir sıra tədqiqatçılar tərəfindən qısa müddət ərzində konsepsiya olaraq inkişaf etdirilmiş və dünyada aktual mövzuya çevrilmişdir. Bu mövzu dünyanın həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələri üçün eyni aktuallığa malikdir. İnsan təhlükəsizliyi, ənənəvi yanaşmalardan fərqli olaraq, yalnız problemlərə reaksiya verməklə kifayətlənmir, həmçinin münaqişələrin əsas səbəblərini və uzunmüddətli nəticələrini həll etməyə çalışır.

İnsan təhlükəsizliyi konsepsiyasının mənşəyini Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) tərəfindən 1994-cü ildə dərc edilmiş İnsan İnkişafı Hesabatının nəşrinə aid etmək olar. BMTİP-nın İnsan İnkişafı Hesabatında insan həyatı və ləyaqətinə diqqət yetirən insan təhlükəsizliyi yanaşmasının vacibliyi vurğulanır. İnsan təhlükəsizliyi BMTİP-nin İnsan İnkişafı Hesabatını konseptuallaşdıran mərhum pakistanlı iqtisadçı Mahbub ul Haq və onunla birgə çalışan bir qrup iqtisadçının tədqiqatlarının nəticəsi olaraq meydana çıxmışdır.

"İnsan təhlükəsizliyi" anlayışı insan hüquqlarının pozulması, epidemiyalar, işsizlik, terrorizm, enerji ehtiyatlarının tükənməsi, qida çatışmazlığı, ekoloji çirklənmə və iqlim dəyişikliyi kimi bu gün dünyanın üzləşdiyi bütün qlobal problemlərə yönəlmişdir. Bu

baxımdan, təhlükəsizlik anlayışı artıq insan rifahının bütün aspektlərini - sağlamlıq, qida, məşğulluq, yaşayış səviyyəsi, təhsil, ictimai etimad və sosial tolerantlığı əhatə etməlidir. Beləliklə, insan təhlükəsizliyi inkişaf siyasətinin bütün sahələrinə tətbiq olunan geniş konseptual yanaşmadır.

Bu cür inteqrasiyalı yanaşma pandemiya və iqlim dəyişikliyi kimi təhdidlərin aradan qaldırılması, davamlı inkişaf məqsədlərinin koordinasiyası və həyata keçirilməsinin sürətləndirilməsi ilə yanaşı, çoxtərəfli əməkdaşlığın genişlənməsinə də müsbət təsir göstərə bilər. İnsan təhlükəsizliyi yanaşması XXI əsrdə dünyanın üzləşdiyi problemlər və qlobal ictimaiyyətin bu problemlərə necə reaksiya verməsi haqqında yeni düşüncə tərzi təqdim edir. Belə ki, insanlar artıq sülh, insan haqları, demokratiya və sosial bərabərlik istəyirlər. İnsan təhlükəsizliyi konsepsiyası, bu tələblərin nəticəsi olaraq ortaya çıxmışdır. Lakin bu günün siyasəti və prioritetləri, hələ də bu istiqamətdəki gözləntilərə tam şəkildə cavab vermir.

Müasir hərbi münaqişə ocaqları, infrastrukturun məhvinə, insan kapitalının inkişafının məhdudlaşmasına, insanların ölümünə və şikəst olmasına səbəb olur, həmçinin fərdlərin, icmaların və dövlətin iqtisadi imkanlarını azaldır. Hərbi münaqişələr eyni zamanda aclıq və qıtlığın əsas səbəblərindən biridir. Bu münaqişələr, resurslardan asılı olan fərdlərin və icmaların təbii ehtiyatlara çıxışını məhdudlaşdırır.

Şübhəsiz ki, insan təhlükəsizliyinin universal bir konseptual çərçivə kimi və ya milli hökumətlər, həmçinin beynəlxalq ictimaiyyət tərəfindən siyasət vasitəsi olaraq qəbul edilməsi müəyyən bir zaman tələb edir. Hərbi qarşıdurma, yoxsulluq, xəstəlik və ətraf mühitin çirklənməsi arasındakı əlaqələr hələ də zəif başa düşülür və bu əlaqələrin aydınlaşdırılmasına ehtiyac vardır.

İnsan təhlükəsizliyinin faydası və əhatə dairəsi ilə bağlı müxtəlif müzakirələr olsa da, artıq qəbul edilir ki, dövlətin suverenliyinə fokuslanan ənənəvi təhlükəsizlik yanaşması kifayət etmir və beynəlxalq ictimaiyyət, qloballaşma dövründə insanların transmilli təhlükələrdən qorunması üçün yeni cavab tədbirləri hazırlamalıdır.

Bu baxımdan, insan təhlükəsizliyi konsepsiyasına əsaslanaraq,

dissertasiyada insan təhlükəsizliyinin əlavə göstəricilərindən istifadə etməklə Cənubi Qafqaz regionundakı bu kontekstin vəziyyətini qiymətləndirmək, eyni zamanda hərbi münaqişələrin səbəblərini və zorakı münaqişələr zamanı xüsusi həssas istiqamətləri müəyyən etmək olduqca zəruridir. Dissertasiya işinin əsas məqsədi 1990-cı illərdən sonra Cənubi Qafqazda hərbi münaqişələrin insan təhlükəsizliyinə təsirini tədqiq etməkdir.

XX əsrin sonlarından başlayaraq, Cənubi Qafqazda həll olunmamış təhlükəsizlik problemləri insan təhlükəsizliyinə birbaşa mənfi təsir göstərir. Belə ki, hərbi münaqişələr etnik təmizləmə, soyqırım, terrorizm, narkotik maddələrin ticarəti, insan alveri, qanunsuz silah ticarəti və kütləvi insan haqları pozuntularına, həmçinin insani fəlakətlərə səbəb olur ki, bu zaman region təbii ehtiyatların tükənməsi, əhalinin kütləvi miqrasiyası, deportasiya, psixososial problemlər, ətraf mühitin çirklənməsi və digər təhlükələrlə üzləşir. Bu kimi amillər, region dövlətlərinin təhlükəsizliyə qarşı olan riskləri müəyyən etmələrini və bu risklərin qarşısını almaq üçün uyğun tədbirlər görmələrini zəruri edir.

Region və digər ölkələrin müxtəlif yanaşmaları həmçinin, təklif etdikləri fərqli həll yolları, xüsusilə region ölkələri arasında qarşılıqlı etimad və güzəştlərin olmaması Cənubi Qafqazdakı problemlərin gələcəkdə də davam edəcəyini göstərir. Prezident İlham Əliyev də regional təhlükəsizlik məsələlərinin əhəmiyyətinə toxunaraq, qeyd etmişdir: “*Biz regionumuzda təhlükəsizlik və əməkdaşlığa bu günümüz və sabahımız prizmasından baxmalıyıq. Təhlükəsizlik olmadan əməkdaşlıq və iqtisadi faydadan söhbət gedə bilməz.*”[1]

Beləliklə, tədqiqat işinin mövzusunun aktuallığı aşağıdakı müddəalarla əsaslandırmaq olar:

- Bugün dünyada baş verən hadisələr bir-birinə təsir edir və gedən proseslər əvvəlkindən daha çox qarşılıqlı əlaqədədir. Hərbi münaqişələr, terrorizm, iqlim dəyişikliyi, pandemiya və s. kimi qlobal problemlər insanların təhlükəsizliyinə və rifahına yönəlmiş vahid yanaşma tələb edir. İnsan təhlükəsizliyi dövlət təhlükəsizliyini

[1] İlham Əliyev ADA Universitetində “Cənubi Qafqaz inkişaf və əməkdaşlıq” mövzusunda keçirilən beynəlxalq konfransda iştirak edib: [Elektron resurs] / President.az. - Bakı, 2022. – URL: https://president.az/az/articles/view/55909

tamamlayır, insan hüquqlarını və insan inkişafını gücləndirir. O, insanları geniş spektrli təhdidlərdən qorumağa çalışır.

- Cənubi Qafqazda hərtərəfli rifahın təmin edilməsi, zorakılığın və münaqişələrin qarşısının alınması, inkişafın təşviqi, insan hüquqlarının müdafiəsi, qlobal qarşılıqlı əlaqənin və dayanıqlılığın təmin olunması, problemlərə insan təhlükəsizliyi kontekstindən yanaşılması, mülki şəxslərin təhlükəsizliyi baxımından bu mövzu xüsusilə aktuallaşır.

- Hərbi münaqişələr regionda insanlar üçün yalnız fiziki təhlükə yaratmamış, həm də sosial, psixoloji və iqtisadi fəsadlara yol açmışdır. Bununla yanaşı, təbii ehtiyatlar üzərində rəqabət mövcud olan gərginlikləri daha da artırmaqla və yerli əhalinin yaşayış səviyyəsinə mənfi təsir göstərməklə Cənubi Qafqazda insan təhlükəsizliyinin aktuallığını gücləndirir.

- Cənubi Qafqaz regionu insan təhlükəsizliyini xüsusilə aktuallaşdıran müxtəlif problemlərlə üzləşir. Qaçaqmalçılıq, insan alveri və digər qeyri-qanuni transsərhəd fəaliyyətlər kimi problemlər insanların təhlükəsizliyinə ciddi təhdidlər yaradır.

- İnsan təhlükəsizliyi bir çox sahəni əhatə etdiyi üçün həm ikitərəfli, həm də çoxtərəfli münasibətlər çərçivəsində təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır. Regional əməkdaşlıq və münaqişələrin həlli Cənubi Qafqazda insan təhlükəsizliyi problemlərinin həllinin əsas komponentləridir. Beləliklə, Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallığın region üçün yaratdığı imkanlar və fürsətlərin araşdırılması zərurəti bu mövzunu bir daha aktuallaşdırır.

Azərbaycan hər zaman regionda sülh və əməkdaşlığın tərəfdarı olmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qeyd etdiyi kimi: "*Biz sülh istəyirik. Biz bütün dünyada sülh istəyirik, bizim regionda sülh istəyirik, bütün qonşu dövlətlərdə sülh və mehriban münasibətlər istəyirik.*"[2]

Dissertasiya işinin aktuallığını şərtləndirən əsas amillərdən biri də odur ki, problem indiyə qədər bu və ya digər dərəcədə araşdırılsa da, insan təhlükəsizliyi aspektində ayrıca tədqiqat işi mövcud deyil.

[2] Əliyev, H. Müstəqilliyimiz Əbədidir dördüncü kitab / H.Əliyev.- Bakı: Azərnəşr, -1997. - 332 s.

Beləliklə, yuxarıda qeyd olunan amillər Cənubi Qafqazda hərbi münaqişələr kontekstində insan təhlükəsizliyinin problemlərinin daha ətraflı tədqiqini aktuallaşdırır.

Tədqiqat mövzusunun ayrı-ayrı aspektləri Azərbaycan və xarici ölkə tədqiqatçıları tərəfindən araşdırılmışdır.

Azərbaycan tədqiqatçılarından H.Babaoğlu öz əsərlərində insan hüquqları və azadlıqlarının tarixi təkamülü, beynəlxalq və politoloji aspektlər kontekstində təhlili mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, onun digər əsərlərində dünya siyasəti və beynəlxalq münasibətlərin tarixi, inkişaf tendensiyaları, nəzəri aspektləri, bu sahədə ən son zamanlarda irəli sürülmüş yeni nəzəri istiqamətlər, onların ümumiləşdirilmələri, müasir beynəlxalq münasibətlərin real əsasları və s. kimi məsələlər öz əksini tapmışdır.[3] Bununla yanaşı, E.Nəsirovun əsərlərində Azərbaycanın Amerika Birləşmiş Ştatları (ABŞ) ilə ikitərəfli münasibətləri geniş təhlil edilmişdir. ABŞ-ın beynəlxalq terrorçuluq fenomeninə qarşı ikitərəfli və çoxtərəfli mübarizə doktrinasının mahiyyəti, məzmunu və forması araşdırılmış, onun tətbiqi istiqamətləri və reallaşdırılması mexanizmləri tədqiq olunmuşdur. Kitabda ABŞ-ın həm 2001-ci il, 11 sentyabr terror aktlarına cavab olaraq atdığı addımların, həm də digər antiterror müharibə əməliyyatlarının siyasi analizi verilmişdir. Azərbaycanın beynəlxalq antiterror koalisiyasında iştirakı məsələləri də elmi təhlil süzgəcindən keçirilmişdir.[4]

---

[3]Babaoğlu, H. İnsan hüquqları və azadlıqları; tarixi təkamülü, beynəlxalq və politoloji aspektlər, Azərbaycan təcrübəsi / H.Babaoğlu. - Bakı: Elm, - 2006.- 241 s.; Babaoğlu, H. Azərbaycan beynəlxalq münasibətlərin aktoru kimi / H.Babaoğlu. - Bakı: Elm, - 2007. - 515 s.; Babaoğlu, H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu / H.Babaoğlu, - Bakı, - 2009. - 328 s.; Babaoğlu, H. Dünya siyasəti və beynəlxalq münasibətlər / H.Babaoğlu. – Bakı: Çinar-Çap, - 2019. - 690 s.; Babaoğlu, H. Xarici siyasət / H.Babaoğlu. - Bakı: Elm, - 2019. - 324 s.

[4] Nəsirov, E. Azərbaycan-ABŞ münasibətləri. 1991-1997-ci illər / E.Nəsirov. – Bakı: Qanun, - 1998. - 136 s.; Nəsirov, E. ABŞ və dünya 11 sentyabrdan sonra / E.Nəsirov. – Bakı: Adiloğlu, - 2003. - 262 s.; Nəsirov, E. Amerika Birləşmiş Ştatlarının antiterror doktrinası və onun tətbiqi mexanizmləri / E.Nəsirov. – Bakı: Elm və Təhsil, - 2010. - 392 s.; Nəsirov, E. ABŞ və beynəlxalq terrorizm problemi 2001-2010-cu illər / E.Nəsirov. – Bakı: TEAS Press, - 2018. - 344 s.

E.Əhmədovun bu istiqamətdə nəşr edilmiş elmi əsərlərində XX əsrin sonunda Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, etnik təmizləmə, dövlət terrorizmi zamanı dinc insanların, xüsusilə uşaqların və qadınların qətlə yetrilməsi ilə bağlı beynəlxalq hüquq normalarının bütün prinsiplərinin kobud şəkildə pozulması faktlarla öz əksini tapmışdır[5]. Bununla yanaşı, müəllifin elmi məqalələrində insan təhlükəsizliyi amili, XX əsrin sonundan başlayaraq, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində, həmçinin İkinci Qarabağ müharibəsi dövründə də Ermənistan tərəfindən qadağan olunmuş silahlarla mülki insanların hədəfə alınması və məqsədli şəkildə qətlə yetirilməsi faktları da diqqətə çatdırılır.[6]

E.Cəmilli "Azərbaycan-Ermənistan münaqişəsi", "Osetiya münaqişəsi" və "Abxaziya münaqişəsi" kimi etnik münaqişələri Cənubi Qafqazın regional təhlükəsizlik mühitinə təhdid kimi nəzərdən keçirmiş, XXI əsrdə münaqişə tərəfləri arasında ziddiyyətlərin kəskinləşməsinə səbəb olan hadisələr və onların həlli istiqamətində atılmış addımları təhlil etmişdir.[7]

V.Ömərov Azərbaycan – Gürcüstan münasibətlərini təhlil etmiş, Ermənistanla müharibə şəraitində olarkən Azərbaycan və region üçün iki ölkə arasında strateji əməkdaşlıq hətta mütəffiqlik səviyyəsinə yüksələn qonşuluq və dostluq münasibətlərinin əhəmiyyətini göstərmişdir.[8]

---

[5] Əhmədov, E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011) / E.Əhmədov. - Bakı: Letterpress, - 2012. - 912 s.; Əhmədov, E. Ermənistanın Azərbaycana təcavüzü: Etnik təmizləmə, soyqırım, terror, işğal. II kitab. / E.Əhmədov. - Bakı: Letterpress, - 2015. - 408 s.; Ahmedov, E. Ermenistan'ın etnik temizlik, soykırım ve işgalcilik politikasının sonunçları // Orta Doğu Araştırmaları Dergisi. Karabağ Özel sayısı, - 2013. №2. - s.73-85.

[6] Əhmədov, E. Ermənistanın etnik təmizləmə, soyqırımı və işğalçılıq siyasətinin nəticələri // Xalq.-2011, 26 fevral.-s.4.; Əhmədov, E. Xocalı soyqırımının beynəlxalq aləmdə tanınması // Xalq.-2014, 26 fevral.- s.8.; Əhmədov E. Ermənistanın təcavüzkarlıq siyasəti və ATƏT // - Bakı: Diplomatiya aləmi, - 2009. №25, - s.33-44.

[7] Cəmilli, E.M. XXI Əsrdə Etnik Münaqişələr Cənubi Qafqazın regional təhlükəsizlik mühitinə təhdid kimi // - Bakı: Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, - 2015. №2, - s. 131-138

[8] Ömərov, V. Azərbaycan – Gürcüstan münasibətləri: sınaqlardan çıxmış əməkdaşlıq: [Elektron resurs] / - Bakı, 2017. URL: https://caucasusstudies.az/e-kitabxana/elmi-meqale/88-azerbaycan-gurcustan-munasibetleri.html

A.Nağının "Qarabağ müharibəsi Qısa tarix"- adlı kitabında Ermənistan-Azərbaycan müharibəsinin kökləri, səbəbləri, gedişi, müharibənin nəticələri ilə bağlı məlumatlar əks olunmuşdur. [9]

S.Həbibbəyli yazdığı monoqrafiyasında Abxaziya və Osetiya münaqişələrində Azərbaycan Respublikasının mövqeyi, Ermənistan-Azərbaycan münaqişəsinə Gürcüstanın münasibəti araşdırılmış, Azərbaycan ilə Gürcüstanın strateji müttəfiqliyə doğru atdıqları addımlar tədqiq edilmişdir.[10]

Q.Paşayeva məqaləsində Gürcu-Abxaz və Gürcü-Osetin münaqişələrinin, həmçinin Rusiya-Gürcüstan münaqişəsinin köklərini təhlil etmiş və Avropa İttifaqının Cənubi Qafqazla bağlı siyasətini araşdırmışdır.[11]

R.Novruzoğlu və Y.Oğuzun həmmüəllif olduğu kitabda toplanmış faktlar, sənədlər və tədqiqat materialları əsasında beynəlxalq terrorizmin bir qolu olan erməni terrorizminin əsl siması göstərilmişdir. Kitab təhlükəsizlik sahəsinin tədqiqində xüsusi əhəmiyyətə malikdir.[12]

S.Məmmədova monoqrafiyasında qlobal ekoloji problemlər və onların nəticələri siyasi müstəvidə nəzərdən keçirilir. Azərbaycan dövlətinin ekoloji siyasətinin prioritet istiqamətləri və perspektivləri ətraflı tədqiq olunur.[13]

Xarici müəlliflərdən XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Rusiyanın ictimai-siyasi xadimi N.Şavrov Ermənilərin

---

[9] Nağı, A. Qarabağ müharibəsi. Qısa tarix / A.Nağı. - Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, - 2014. - 121 s.

[10] Həbibbəyli, S. Azərbaycan Respublikası- Gürcüstan münasibətləri / S.Həbibbəyli. - Bakı: Parlaq İmzalar,-2024.-304 s.

[11] Paşayeva, Q.Ə. Avropa İttifaqı və Cənubi Qafqaz Münaqişələri // - Bakı: Bakı Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası, - 2013. №3, - s.120-131.

[12] Novruzoğlu, R. Qarabağ: Nəzarətsiz zona.... / R.Novruzoğlu, Y.Oğuz, - Bakı: Ozan, -2002.- 252 s.

[13] Məmmədova, S. Azərbaycan Respublikasının ekoloji siyasəti / S.Məmmədova. – Bakı:  Sabah, - 2014. - 312 s.

Azərbaycan ərazilərinə köçürülməsinin tarixi ilə bağlı çox faydalı məlumatlar təqdim edir.[14]

J.Gierszewski məqaləsində təhlükəsizliyi fərdlərdən deyil, dövlətin siyasi və hərbi vəziyyətindən qaynaqlanan təhdidlərlə əlaqələndirmişdir.[15]

I.Kirova Abxaziyaya və Cənubi Osetiyaya qarşı tədbiq edilən ictimai diplomatiya və yumuşaq güc strategiyalarına nəzər yetirərək, münaqişələrin tənzimlənməsində Avropa İttifaqının və Rusiyanın rolunu təhlil etmişdir.[16]

B.Buzan və L.Hansenlə həmmüəllif olduğu kitabda 1945-ci ildən sonra təhlükəsizlik anlayışının şaxələndiyini və onun bütün elementlərinin bütövlükdə nəzərdən keçirilməsinin zəruri olduğunu vurğulayır. Buzan təhlükəsizliyi müəyyən etmək üçün ənənəvi hərbi sektorun iqtisadi, siyasi və ekoloji sahələri də əhatə edəcək şəkildə genişləndirilməli olduğunu qeyd etməklə təhlükəsizlik anlayışının təhlilini aparmışdır.[17]

1994-cü ildə nəşr olunan BMTİP-nın İnsan İnkişafı Hesabatı dissertasiya işinin mühüm mənbə bazasını təşkil edir. O, insan təhlükəsizliyinin həm milli, həm də qlobal problemlərini araşdırır. Hesabat potensial sülh dividendlərini, əməkdaşlığın yeni formasını və qlobal institutların yenidən qurulmuş sistemini əsas tutaraq, davamlı insan inkişafının yeni paradiqması vasitəsilə bu istiqamətdə problemləri həll etməyə çalışır.[18]

Tədqiqat prosesində istifadə olunan mənbələr arasında dövlət qurumlarının, beynəlxalq təşkilatların və xarici dövlətlərin rəsmi

---

[14] Шавров, Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцамъ / Н.Н.Шавров. – Санкт-Петербург: Типография Редакций периодических изданий,-1911. - 78 с.

[15] Gierszewski, J. Personal Security within the Human Security Paradigm. // Security Dimensions. International & National Studies, - 2017, (23), p. 51–66.

[16] Kirova, I. Public diplomacy and conflict resolution: Russia, Georgia and the EU in Abkhazia and South Ossetia. - Los Angeles: Figueroa Press, - 2012. - 85 p.

[17] Buzan, B. The Evolution of International Security Studies / B.Buzan, L.Hansen – Cambridge: Cambridge University Press, - 2009. - 384 p.

[18] Human Development Report 1994: [Electronic resource] / United Nations Development Programme. - 1994.
URL:https://hdr.undp.org/system/files/documents/hdr1994encompletenostats.pdf

internet resurslarından əldə edilmiş elektron materiallar, eləcə də mətbuat nəşrləri yer almışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini insan təhlükəsizliyi, onun əsas göstəriciləri, mövcud problemləri və perspektivləri, predmetini isə Cənubi Qafqazda hərbi münaqişələrin insan təhlükəsizliyinə təsirinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi müasir şəraitdə Cənubi Qafqazda hərbi münaqişələrin insan təhlükəsizliyinə təsirini öyrənməkdən ibarətdir. Qarşıya qoyulmuş məqsədin reallaşdırılması üçün aşağıda qoyulan məsələlərin elmi-nəzəri tədqiq edilməsi konkret vəzifələr kimi müəyyən edilmişdir:

- İnsan təhlükəsizliyi anlayışını öyrənmək və onu əsas elmi yanaşmalar çərçivəsində nəzərdən keçirmək;
- İnsan təhlükəsizliyinin müasir məzmunu, eləcə də əsas parametrlərini təhlil etmək;
- Cənubi Qafqazda hərbi münaqişələrin yaranma səbəblərinin daxili amillərini müəyyənləşdirmək;
- Hərbi münaqişələrin regionda insan təhlükəsizliyinə təsirində xarici qüvvələrin maraqlarını təhdid kimi nəzərdən keçirmək;
- İnsan təhlükəsizliyinin təminatında regional əməkdaşlığın faydalarını, bölgənin geostrateji imkanlarından və üstünlüklərindən birgə istifadənin region dövlətləri üçün əhəmiyyətini proqnozlaşdırmaq, eyni zamanda əməkdaşlığa olan maneələr haqqında geniş təsəvvür təqdim etmək;
- İnsan təhlükəsizliyinin siyasi aspektlərinə istiqamətlənən təhdidləri müəyyənləşdirmək;
- İnsan təhlükəsizliyinin sosial-iqtisadi aspektlərini müəyyənləşdirmək, regionda insanların rifahına diqqət yetirməklə, onların gündəlik həyatlarında qarşılaşdıqları müxtəlif təhdid və problemləri nəzərdən keçirmək;
- Regionda insan təhlükəsizliyinin ekoloji aspektlərini təhlil etmək.

Göstərilən bu vəzifələr dissertasiya işi çərçivəsində təhlil olunan bütün əsas komponentləri əhatə edir. Bir sözlə, sadalanan vəzifələrin yerinə yetirilməsi nəticəsində insan təhlükəsizliyi və onun növləri, qloballaşma nəticəsində insan təhlükəsizliyinə qarşı çıxan yeni təhdidlər, Cənubi Qafqazda münaqişələr və onun insan

təhlükəsizliyinə yaratdığı təhdidlər, Cənubi Qafqazda əməkdaşlığın insan təhlükəsizliyi aspektindən perspektivləri elmi-nəzəri baxımdan araşdırılmış və təhlil edilmişdir.

**Tədqiqat metodları:** Tədqiqat işi konkret tarixi faktlara və təhlillərə əsaslanmışdır. Dissertasiyada hadisə və proseslərin təhlili ilə yanaşı səbəb-nəticə əlaqələri də nəzərdən keçirilmişdir. Mövzunun tədqiqi zamanı problemə kompleks yanaşma metodundan istifadə edilmişdir. Fəaliyyət metodu isə regiondakı münaqişələrin inkişafını ardıcıl mərhələlərdən ibarət silsilə proses kimi nəzərdən keçirmək üçün tədbiq olunmuşdur. Müqayisəli metod vasitəsilə Cənubi Qafqazda hərbi münaqişələrin müqayisəsi aparılmış, oxşar və fərqli cəhətləri müəyyənləşdirilmişdir. İnsan təhlükəsizliyinin öyrənilməsində müqayisəli metoddan istifadə etməklə fərdlərin və icmaların rifahının, eləcə də təhlükəsizliyinin təmin olunması istiqamətində yanaşmaların müxtəlifliyi, uğurları və çətinlikləri haqqında məlumatlar əldə edilmişdir. Tədbiqi metodlara gəlincə isə, başlıca olaraq, sənədlərin öyrənilməsi tədbiq edilmişdir. Qanunvericilik aktları, dövlət proqramları və beynəlxalq konvensiyalar kimi ilkin mənbələrdən istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:**

- İnsan təhlükəsizliyi çağırışı Cənubi Qafqazda inkişafa təkan vermək, münaqişələrin qarşısını almaq və post-münaqişə dövründə çoxsaylı təhdidləri aradan qaldırmaq üçün yeni imkanlara verilən cavabdır;
- Həm daxili, həm də kənar qüvvələr regionda insan təhlükəsizliyinin pozulmasında müəyyən dərəcə iştirak edirlər;
- Təhlükəsizliyə insan mərkəzli yanaşma Cənubi Qafqazda sülh quruculuğu təşəbbüslərinin həyata keçirilməsinə şərait yaradır;
- Siyasi, sosial-iqtisadi, ekoloji parametrlər Cənubi Qafqazda insan təhlükəsizliyini qiymətləndirmək üçün əsas parametrlər hesab olunur.

**Tədqiqatın elmi yeniliyi.** Cənubi Qafqazda insan təhlükəsizliyinin ayrı-ayrı aspektlərinə həsr olunmuş yerli və xarici tədqiqatçıların bəzi araşdırmaları olsa da, siyasi elmlər sahəsində bu problemin kompleks şəkildə öyrənilməsinə dair ayrıca fundamental tədqiqat əsəri mövcud olmamışdır. Dissertasiya işinin elmi yeniliyi araşdırılan problemin aktuallığı və qarşıya qoyulmuş vəzifələrin

yeniliyi ilə xarakterizə olunur. Elmi yenilik aşağıdakı əsas istiqamətlər üzrə müəyyən edilmişdir:

- İnsan təhlükəsizliyi anlayışı ilk dəfə olaraq sistemli şəkildə araşdırılmış və onun müxtəlif elmi yanaşmalar çərçivəsində təhlili aparılmışdır.

- Cənubi Qafqazda ilk dəfə olaraq hərbi münaqişələrdən irəli gələn təhdidlər məhz insan təhlükəsizliyi kontekstində kompleks şəkildə araşdırılmışdır.

- İlk dəfə olaraq regiondan kənar aktorların geosiyasi maraqları ilə Cənubi Qafqazda insan təhlükəsizliyinin təmin olunması arasındakı qarşılıqlı əlaqə sistemli şəkildə təhlil edilmişdir**.**

- Geosiyasi gərginliklə yanaşı Cənubi Qafqazda regional əməkdaşlıq və inteqrasiya kimi regional təşəbbüslər insan təhlükəsizliyi çərçivəsində araşdırılmışdır;

- Cənubi Qafqazda hərbi münaqişələrin yaranma səbəbləri və onların insan təhlükəsizliyinə əsas təsirləri müəyyənləşdirilmişdir;

- Xarici qüvvələrin maraqları hərbi münaqişələrin regionda insan təhlükəsizliyinə təsirində ayrıca təhdid faktoru kimi dəyərləndirilmişdir.

- İnsan təhlükəsizliyinin təmin olunmasında regional əməkdaşlığın zəruriliyi, bölgədə əməkdaşlığa olan maneələr araşdırılmışdır;

- Cənubi Qafqazda insan təhlükəsizliyinin siyasi, sosial-iqtisadi və ekoloji aspektləri tədqiq edilmiş, bu sahələrdə mövcud olan müxtəlif təhdidlər və problemlər hərtərəfli təhlil olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Aparılan tədqiqat və əldə olunan elmi nəticələr həm nəzəri, həm də praktiki baxımdan əhəmiyyətlidir. Dissertasiya işində gəlinən nəticələrdən, irəli sürülən və faktlarla əsaslandırılan elmi müddəalardan siyasi nəzəriyyə elmində modelləşdirməyə dair aparılan tədqiqatlarda istifadə oluna bilər. Təqdim olunan məlumatların etbarlılığını təmin etmək məqsədilə BMT qurumları tərəfindən təqdim edilən statistik məlumatlardan geniş şəkildə istifadə edilmişdir. Dissertasiyanın elmi-nəzəri və praktiki əhəmiyyəti iki xüsusi faktorla bağlıdır. Bunlardan birincisi dissertasiya işinin Azərbaycanda insan təhlükəsizliyi sahəsində ilk elmi-tədqiqat işlərindən biri olmasıdır. Digər bir xüsusi faktor isə, ilk dəfə olaraq hərbi münaqişələr

nəticəsində insan təhlükəsizliyinin təmin olunmasının məhz Cənubi Qafqaz regionuna təsiri prizmasından öyrənilməsidir. Bunları nəzərə alaraq, bu dissertasiya işi gələcəkdə Cənubi Qafqazda insan təhlükəsizliyi ilə bağlı yeni tədqiqatların aparılmasında, metodoloji vəsaitlərin tərtib edilməsində, eləcə də mühazirə materiallarının hazırlanmasında geniş istifadə oluna bilər.

**Aprobasiyası və tədbiqi.** Dissertasiyanın əsas müddəaları və əldə edilmiş nəticələr müəllifin elmi məqalələrində və konfrans materiallarında öz əksini tapmışdır. Mövzu ilə bağlı müəllifin həm Azərbaycanda, həm də xarici ölkələrdə elmi məqalələri və konfrans materialları çap olunmuşdur. Əsas müddəalar respublika səviyyəli və beynəlxalq elmi konfranslarda, seminarlarda edilən çıxış və məruzələrdə, çap olunan elmi jurnallardakı məqalələrdə aprobasiya olunmuşdur. Ümumiyyətlə, çap olunmuş məqalə və konfrans materialları tədqiqat işinin ümumi məzmununu əhatə edir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, səkkiz yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi – 241.865, giriş hissə – 19.346, birinci fəsil – 47.284, ikinci fəsil – 76.323, üçüncü fəsil – 82.148, nəticə hissə – 16.764 işarədir.

## II DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Giriş hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqat mövzusunun elmi işlənmə dərəcəsi təhlil edilərək, mövcud ədəbiyyata münasibət bildirilmişdir. Burada həmçinin tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliyi, nəzəri-praktiki əhəmiyyəti, eləcə də aprobasiyası göstərilmişdir.

I Fəsil **"Hərbi münaqişələr kontekstində insan təhlükəsizliyi problemi"** adlanır. Bu fəslin **"İnsan təhlükəsizliyi məsələsinə elmi və nəzəri yanaşmalar"** adlanan yarımfəslində vurğulanır ki, 1994-cü ildə BMTİP insan təhlükəsizliyi konsepsiyasını dünyaya təqdim etmişdir. Bu konsepsiya iqtisadi, ərzaq, sağlamlıq, ekoloji, şəxsi, icma və siyasi təhlükəsizliyi əhatə etməklə, təhlükəsizliyin əhatə dairəsini genişləndirmişdir. Bununla, insan təhlükəsizliyi ənənəvi dövlət təhlükəsizliyi anlayışından kənara çıxaraq, fərdlərin və icmaların rifahına və təhlükəsizliyinə yönəlmiş yeni yanaşma kimi formalaşmışdır. İnsan təhlükəsizliyinin iki əsas komponenti vurğulanır: "qorxudan azad olmaq" və "ehtiyacdan azad olmaq". Geniş mənada isə insan təhlükəsizliyi qorxudan, ehtiyacdan azad olmaqla yanaşı, ləyaqətlə yaşamaq azadlığını da əhatə edir.[19] İnsan təhlükəsizliyi konsepsiyasının dörd cəhətinə nəzər yetirilir. Təhlükəsizliyə yeni yanaşmaların formalaşmasında çox mühüm rola malik Frankfurt, Paris, Uels və Kopenhagen məktəbləri haqqında məlumat verilir. Bundan əlavə, insan hüquqlarına əsaslanan yanaşma, eləcə də liberal və institusional yanaşmanın əsas ideyaları təhlil edilərək, onların insan təhlükəsizliyi konsepsiyası ilə əlaqəsi araşdırılmışdır.

**"Hərbi münaqişələr və insan təhlükəsizliyinin əsas parametrləri"** adlı ikinci yarımfəsildə qeyd edilir ki, hərbi münaqişələr insan təhlükəsizliyinə əhəmiyyətli dərəcədə təsir göstərir. Hərbi münaqişələrin yaranması və həlli ilə bağlı müxtəlif təhlillərin aparılmasında realizm, əməkdaşlıq mexanizmlərinin sülh və təhlükəsizliyin təmin olunmasında isə liberalizm kimi beynəlxalq nəzəriyyələrin mühüm rol oynadığı vurğulanır.

---

[19] Boer M.D, The Viability of Human Security, / M.D, Boer, J. Wilde, - Amsterdam University Press, - 2008.- p. 151-182.

Beynəlxalq humanitar hüququn sənədlərinə əsasən, müharibənin bütün aspektlərini tənzimləyən qanunla müəyyən edilmiş standartlar mövcuddur. Bu standartlar beynəlxalq humanitar hüququn əsas mənbələrindən biri olan 1949-cu il dörd Cenevrə Konvensiyasında müəyyən edilmişdir. Beynəlxalq humanitar hüquq, humanitar səbəblərə görə silahlı münaqişənin təsirlərini məhdudlaşdırmağa çalışan qaydalar toplusudur. Döyüş əməliyyatlarında iştirak etməyən şəxsləri müdafiə edir, həmçinin müharibə vasitələrini və üsullarını məhdudlaşdırır.[20]

BMTİP-nın Hesabatına görə, insan təhlükəsizliyinin təhlili onun universallığını, bütün komponentlərinin bir-birindən asılılığını, gecikmədən, daha erkən qabaqlayıcı tədbirlərin tətbiq olunmasının zəruriliyini, habelə insanlara kömək etməyi nəzərə almalıdır.[21] BMTİP-nın hesabatına əsasən, insan təhlükəsizliyinə təhdidlərin siyahısı genişdir, lakin onların əksəriyyəti yeddi əsas kateqoriya üzrə nəzərdən keçirilir: İqtisadi təhlükəsizlik, qida təhlükəsizliyi, sağlamlıq təhlükəsizliyi, ekoloji təhlükəsizlik, şəxsi təhlükəsizlik, icma təhlükəsizliyi, siyasi təhlükəsizlik.[22]

Bu ölçülərin hər biri hərtərəfli insan təhlükəsizliyinin təşviqində siyasi, sosial, iqtisadi və ekoloji amillərin qarşılıqlı əlaqəsini vurğulayır. Beynəlxalq humanitar yardım, sülhməramlı təşəbbüslər və münaqişələrin həlli səyləri bu təhlükələrin azaldılması və münaqişədən sonrakı şəraitdə insan təhlükəsizliyinin yenidən təmin olunması baxımından mühüm rol oynayır.

**“Cənubi Qafqazda hərbi münaqişələrin və insan təhlükəsizliyi problemlərinin yaranmasına səbəb olan amillər”** adlı ikinci fəslin birinci yarımfəsli **“Cənubi Qafqazda hərbi münaqişələrin yaranması”** adlanır. Bu yarımfəsildə Cənubi Qafqaz xalqlarının xarici güclərə istiqamətlənməsində siyasi və dini

---

[20] Petrin, S. Human Security in U.S. Military Operations: A Primer for DOD: / Peacekeeping and Stability Operations Institute (PKSOI). – June, 2021. URL: https://pksoi.armywarcollege.edu/wp-content/uploads/2021/07/HumanSecurityPrim4DoD_v16Jun21.pdf

[21] Gierszewski, J. Personal Security within The Human Security Paradigm // Security Dimensions. International & National Studies, - 2017, 23 (23), - p.53

[22] Human Development Report 1994: [Electronic resource] / United Nations Development Programme. - 1994. URL: https://hdr.undp.org/system/files/documents/hdr1994encompletenostats.pdf

xüsusiyyətlərin təsiri araşdırılır. Xalqlar arasında tarixi nifrət, fərqli etnik kimliklər, dinlər və mədəniyyətlər mövcud olmuşdur. Ortaq mənşə, mədəniyyət və həmrəylik hissinin olmaması və onun regionda gedən proseslərə, sülhə və sabitliyə təsiri araşdırılmışdır. Eyni zamanda, Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) dağılma mərhələsində Cənubi Qafqazda "Ermənistan-Azərbaycan münaqişəsi", "Osetiya münaqişəsi" və "Abxaziya münaqişəsi" kimi hərbi münaqişələrin meydana çıxmasının səbəbləri təhlil edilmişdir.

Cənubi Qafqaz regionu son otuz ildə bir sıra hərbi münaqişələrə məruz qalmışdır. Sovet İttifaqının dağılması nəticəsində yaranan etnik gərginlik, qeyri-düzgün daxili siyasətlər və iqtisadi tənəzzül regionda qeyri-sabitliyin yaranmasına, müharibə vəziyyətinə və yoxsulluğa səbəb olmuş, həmçinin bu günə qədər ticarət münasibətlərinin inkişafına mane olmuşdur.

**"Hərbi münaqişələrin regionda insan təhlükəsizliyinə təsirində xarici amillər"** adlı ikinci yarımfəslində qeyd olunur ki, beynəlxalq kontekst və xarici aktorlar regionda insan təhlükəsizliyi baxımından nəzərdən keçirilən hadisələrə əhəmiyyətli təsir göstərir. Soyuq müharibənin başa çatması ilə qlobal təhlükəsizliyin istiqaməti də dəyişmiş və çoxşaxəli olmuşdur.

Çoxtərəfli təhlükəsizlik tədbirləri Cənubi Qafqaz regionunda mürəkkəb geosiyasi dinamika və üst-üstə düşən təhlükəsizlik problemlərinə görə mühüm əhəmiyyət kəsb edir. Regionda çoxtərəfli təhlükəsizliyin vacib olmasının səbəblərini şərtləndirən bir sıra amillər vardır. Belə ki, regionu əhatə edən beynəlxalq mühit regional məsələləri mürəkkəbləşdirir. Cənubi Qafqaz strateji coğrafi mövqeyi və enerji ehtiyatları ilə mühüm regiona çevrilmişdir. Bölgənin strateji mövqeyi və Avropanı Asiya ilə birləşdirməsi, eləcə də Xəzərin enerji resurslarının qərbə ixracı üçün əsas marşrut kimi istifadə olunması istiqamətində regionun mövqeyi ona olan geosiyasi diqqətin artmasına səbəb olmuşdur.[23]

---

[23] Svante E.C. Regional Security in the South Caucasus: The Role of NATO: [Electronic resource] / E.C.Svante, R.N.McDermott, W.D.O'Malley [et al.] Central Asia-Caucasus Institute. - 2004. URL: https://www.silkroadstudies.org/resources/pdf/SilkRoadPapers/2004_cornell-et-al_regional-security-in-the-south-caucasus.pdf

Cənubi Qafqaz ölkələrinin təhlükəsizliyi üçün risklər çoxşaxəli xarakter daşıyır, bu da onları proqnozlaşdırmağı və qiymətləndirməyi çətinləşdirir. Beləliklə, regiondan kənar müxtəlif ölçülərdən istifadə etmək insan təhlükəsizliyi konsepsiyasının mahiyyətini açıqlamaq üçün əsas olmuşdur.

Üçüncü yarımfəsil **"İnsan təhlükəsizliyinin təminatında regional əməkdaşlıq"** adlanır. Bu yarımfəsildə vurğulanır ki, regional əməkdaşlıq Cənubi Qafqazda insan təhlükəsizliyi ilə bağlı mürəkkəb problemlərin həlli istiqamətində mühüm əhəmiyyətə malikdir. Qarşılıqlı inamın yaradılması, institutların gücləndirilməsi və ümumi maraqlar istiqamətində səylərin göstərilməsi regionda daha təhlükəsiz gələcək üçün zəmin yarada bilər.

Azərbaycanın təşəbbüskarı olduğu üçtərəfli əməkdaşlıq formatlarından biri Azərbaycan-Gürcüstan-Türkiyə əməkdaşlığıdır. Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı strateji əhəmiyyət daşıyır və regionda təhlükəsizlik balansının qorunması baxımından hər zaman aktual olmuşdur. Azərbaycan-Gürcüstan-Türkiyə əməkdaşlığı rəsmi olaraq 2012-ci ilin iyununda Trabzon Bəyannaməsi ilə yaradılmışdır ki, bu da siyasi dialoqun gücləndirilməsinə və qarşılıqlı layihələrin təşviqinə yönəlmiş nazirlər platformasının həyata keçirilməsi yolu ilə mövcud əlaqələri genişləndirmişdir.[24]

Digər bir regional əməkdaşlıq formatı olan "3+3" ilk dəfə Türkiyə və Azərbaycan liderləri tərəfindən İkinci Qarabağ müharibəsindən sonra irəli sürülən təşəbbüsdür. Bu qruplaşma Cənubi Qafqazın üç ölkəsini (Ermənistan, Azərbaycan və Gürcüstan) və bu regiona qonşu olan üç ən mühüm ölkəni (Rusiya, Türkiyə və

---

[24] Frappi, C. Patterns for Cooperation in The Southern Caucasus Area, Azerbaijan, Georgia and Turkey - Triangular Diplomacy in the shadow of energy strategy: [Electronic resource] / C.Frappi, M.Valigi, ISPI Working Paper. – July, 2015. URL: https://www.researchgate.net/profile/Carlo-Frappi/publication/281546929_PATTERNS_FOR_COOPERATION_IN_THE_SOUTHERN_CAUCASUS_AREA_AZERBAIJAN_GEORGIA_AND_TURKEY_TRIANGULAR_DIPLOMACY_IN_THE_SHADOW_OF_ENERGY_STRATEGY/links/55ed3daf08ae65b6389f44de/PATTERNS-FOR-COOPERATION-IN-THE-SOUTHERN-CAUCASUS-AREA-AZERBAIJAN-GEORGIA-AND-TURKEY-TRIANGULAR-DIPLOMACY-IN-THE-SHADOW-OF-ENERGY-STRATEGY.pdf

İran) əhatə edir. Altı ölkədən dördü təşəbbüsə dərhal müsbət reaksiya vermiş, lakin Ermənistan və Gürcüstan tərəddüdlə yanaşmışdır. Hələlik Gürcüstan bu platformada iştirakdan imtina edərək, ona alternativ "3+2" formatını (Cənubi Qafqaz ölkələri + Aİ və Birləşmiş Ştatlar) təklif etmişdir. Tbilisi öz əks təklifini "Sülh Qonşuluq Təşəbbüsü" adlandırmış, lakin onu həyata keçirmək üçün konkret addımlar atmamışdır. Nəticə etibarilə, "3+3" formatı Qafqaz üçün uzun müddətdir arzulanan regional layihə kimi görünə bilər.[25] Digər əməkdaşlıq nümunəsi Zəngəzur dəhlizidir ki, onun reallaşmasının bütün region ölkələri üçün iqtisadi və strateji baxımdan faydası olacaq.

**"Regionda hərbi münaqişələr və insan təhlükəsizliyinin siyasi, sosial-iqtisadi və ekoloji aspektləri"** adlı üçüncü fəslin **"Siyasi aspektlər"** adlı birinci yarımfəslində insan təhlükəsizliyinin siyasi, icma və şəxsi təhlükəsizlik ölçüləri araşdırılır. Siyasi təhlükəsizlik insan hüquqlarının qorunmasını, siyasi repressiyaların qarşısının alınmasını və yaxşı idarəçiliyi vurğulayır. Təhlükəsizliyin bu ölçüsü insanların sui-istifadələrdən qorunmasını və onların həyatlarına təsir edən qərar qəbuletmə proseslərində iştirak azadlığına malik olmasını təmin etmək üçün vacibdir.[26] İcma təhlükəsizliyi isə ənənəvi dəyərlərin və mədəniyyətlərin, dillərin və ümumi dəyərlərin qorunmasını əhatə edir. Buraya həmçinin etnik ayrı-seçkiliyin ləğvi, etnik münaqişələrin qarşısının alınması və yerli əhalinin müdafiəsi daxildir.[27] Şəxsi təhlükəsizlik insanları dövlətin və digər qurumların fiziki zorakılığından qorumaq məqsədi daşıyır. Şəxsi təhlükəsizliyə olan təhdidlər dövlətlərarası müharibədən, hərbi

---

[25] Huseynov, V. 3+3 and the Prospects for Pax Caucasia? The 3+3 Regional Cooperation Initiative: [Electronic resource] / Baku Dialogues. – 2022. URL: https://bakudialogues.ada.edu.az/media/2022/04/11/bd-v5-n3-spring-2022_huseynov.pdf

[26] Enhancing Human Security through Local Climate Actions: [Electronic resource] / United Nations Development Programme (UNDP). - 2020. URL: https://www.undp.org/nepal/publications/enhancing-human-security-through-local-climate-actions

[27] Human Development Report 1994: [Electronic resource] / United Nations Development Programme. - 1994. URL: https://hdr.undp.org/system/files/documents/hdr1994encompletenostats.pdf

zorakılıqdan - münaqişələrdən və siyasi zorakılıq təhdidlərindən tutmuş cinayət və məişət zorakılığına qədər uzanır.[28]

Cənubi Qafqazda siyasi təhlükəsizlik geosiyasi qeyri-sabitlikdən təsirlənir. Ermənistan, Azərbaycan və Gürcüstanın daxil olduğu region mürəkkəb geosiyasi gərginliklər, tarixi münaqişələr və etnik parçalanmalar nəticəsində yaranmışdır. Regionda şəxsi təhlükəsizliyə həm tarixi, həm də müasir faktorlar dərindən təsir edir. Cənubi Qafqazda insan təhlükəsizliyinin siyasi, şəxsi və icma ölçüləri bir-biri ilə dərindən bağlıdır. Bu çağırışların kompleks şəkildə təhlili regionda sabitliyə mane olan problemlərin dərindən anlaşılması baxımından mühüm əhəmiyyət kəsb edir.

**"Sosial-iqtisadi aspektlər"** adlı ikinci yarımfəsildə Cənubi Qafqaz ölkələrində mütəşəkkil cinayətkarlığın artması, iqtisadi problemlər, məcburi köçkünlük və digər təhlükələr təhlil olunur. Hərbi münaqişələr nəticəsində Cənubi Qafqaz regionunda qaçqın və məcburi köçkünlük problemi insan təhlükəsizliyinə təsir edən mühüm məsələlərə çevrilmişdir. Bu yarımfəsildə regionda insan təhlükəsizliyinin ərzaq, sağlamlıq və iqtisadi təhlükəsizlik ölçüləri tədqiq edilmişdir. Ərzaq təhlükəsizliyi nəinki iqtisadi təhlükəsizliyin, həmçinin ekoloji və siyasi təhlükəsizliyin əsas elementi hesab olunur.[29]

Sözsüz ki, Cənubi Qafqazdakı problemlər ərzaq təhlükəsizliyinə təsirsiz ötüşməmişdir. Həm hərbi münaqişələr zamanı, həm də sonrakı dövrdə davam edən böhran yerli və regional qida sistemləri ilə yanaşı insanların qida əldəetmə imkanlarına da ciddi təsir göstərmişdir. Cənubi Qafqaz dərin siyasi və iqtisadi böhran içində olmuşdur.

Regionda baş verən müharibələr, etnik gərginlik, cinayət, zorlama, məişət zorakılığı, uşaqlara qarşı zorakılıq, intihar və narkomaniya kimi özünə zərər vurma kimi təhdidlər insanların sağlam həyat tərzini təhlükə altına salmışdır. Psixi sağlamlıq problemləri hərbi münaqişədən təsirlənmiş əhali, xüsusilə də

---

[28] Gierszewski, J. Personal Security within The Human Security Paradigm // Security Dimensions. International & National Studies, - 2017, 23 (23), - p.54

[29] Human Development Report 1994: [Electronic resource] / United Nations Development Programme. - 1994. URL: https://hdr.undp.org/system/files/documents/hdr1994encompletenostats.pdf

qaçqınlar və məcburi köçkünlər arasında üstünlük təşkil etmişdir. Region ölkələri hərbi münaqişələr nəticəsində bir çox iqtisadi imkanlarını itirmişdir. İnfrastrukturun bərpası və müharibə qurbanlarına psixoloji dəstəyin göstərilməsi səyləri kifayət qədər maliyyələşmənin olmaması, siyasi qeyri-sabitlik səbəbindən çətinliklərlə üzləşmişdir. İnsan təhlükəsizliyinin bu növlərinin təhlili hərbi münaqişələrin regionda məskunlaşan əhalinin rifahına, sağlamlığına və regionun inkişafına birbaşa təsir etdiyini göstərir.

**"Ekoloji aspektlər"** adlı üçüncü yarımfəsildə insan təhlükəsizliyinin ekoloji təhlükəsizlik ölçüsü təhlil olunur. Ekoloji təhlükəsizliyin məqsədi insanları həm antropogen, həm də təbii mənşəli təhlükələrdən qorumaqdır (məsələn, təmiz sudan məhrum olma, havanın çirklənməsi və ya qlobal istiləşmə ilə bağlı təhlükələr).[30] Hərbi münaqişələrin ekoloji təsirləri insan təhlükəsizliyi ilə sıx bağlıdır və nəticələri uzunmüddətli bərpa prosesinə və inkişafa təsir göstərir.

Qeyd etmək lazımdır ki, son 30 ildə Ermənistanın Azərbaycan ərazilərində törətdiyi vandalizm aktları həm də ekoloji terrordur. Təəssüf ki, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının təbiətinə, bioloji müxtəlifliyinə, su hövzələrinə, ümumilikdə işğal altında olan ərazilərin ekologiyasına ciddi ziyan dəymiş, ətraf mühitin məhvi ilə nəticələnən fəsadlara gətirib çıxarmışdır. Ermənistan həmçinin ekoloji cinayətlər törətmişdir ki, bu da təkcə işğal olunmuş ərazilər üçün deyil, bütün region üçün ciddi təhlükə yaratmışdır.

Gürcüstanda Abxaziya və Cənubi Osetiya bölgələrində, eləcə də 2008-ci ildə Rusiya-Gürcüstan müharibəsi zamanı yaranan ekoloji problemlər həm ətraf mühit, həm də insanların təhlükəsizliyi üçün ciddi problemlərə səbəb olmuşdur. Münaqişənin ətraf mühitə vurduğu zərəri sadəcə hektarlarla yandırılmış meşələrin və ya çayların, o cümlədən Qara dənizin çirklənmə səviyyəsinin hesablanması ilə ölçmək mümkün deyil. Bütün silahlı qüvvələr, tərəflərin qoşulduğu beynəlxalq ekoloji və humanitar hüququn

---

[30] Gierszewski, J. Personal Security within The Human Security Paradigm // Security Dimensions. International & National Studies, - 2017, 23 (23), - p.54

prinsiplərinə və qaydalarına riayət etməlidir. Təbii və mədəni sərvətlər heç bir halda talan edilə və ya məhv edilə bilməz.[31]

İşğal edilmiş ərazilərin nəzarətdən kənarda qalması Cənubi Qafqazın təbii mühitinə mənfi təsir göstərməklə yanaşı, həm də, region ölkələrinin ümumi təhlükəsizliyinə də ciddi zərbə vurmuşdur. Bu problemlərin həlli ətraf mühitin bərpasına, regional əməkdaşlığın gücləndirilməsinə və nəticədə uzunmüddətli sülhə, həmçinin insan təhlükəsizliyinə töhvə verən münaqişədən sonra hərtərəfli bərpa strategiyalarının hazırlanmasını tələb edir.

"**Nəticə**" hissəsində tədqiqata yekun vurularaq ümumiləşdirmələr aparılmış və onların əsasında nəzəri və praktiki əhəmiyyət kəsb edən təklif və tövsiyələr irəli sürülmüşdür. Qeyd edilmişdir ki, ənənəvi təhlükəsizlik konsepsiyasında istinad obyekti dövlətdir, insan təhlükəsizliyi inkişafının mərkəzində isə əksinə, bu, fərddir. İnsan təhlükəsizliyi həm də təhdidlərin çox sektorlu təhlilinə əsaslanaraq, təhdidlərin daha geniş sahəsini: - iqtisadi, ərzaq, sağlamlıq, ekoloji, şəxsi, icma və siyasi təhlükəsizliyi əhatə edir və bu sahələrdən irəli gələn təhlükələrin səbəblərini müəyyənləşdirərək onların həlli yollarını araşdırır.

Cənubi Qafqazda insan təhlükəsizliyi öz aktuallığını saxlamaqdadır. Region dövlətləri daxilində ərazi və etnik problemlər nəticəsində yaranan gərginliklər müharibə vəziyyətinə səbəb olmuş, nəticədə Ermənistanla Azərbaycan, Gürcüstanla Osetiya və Gürcüstanla Abxaziya arasında hərbi münaqişələr baş vermişdir. Etnik-ərazi münaqişələrin yaranmasında daxili faktorlarla yanaşı, regiondan kənar qüvvələr və geosiyasi rəqabət amili də rol oynamışdır.

Regiondakı hərbi münaqişələr BMTİP-in qeyd etdiyi insan təhlükəsizliyinin yeddi növünün hər birinə həm münaqişələr zamanı, həm də, post münaqişə dövründə dərindən təsir etmişdir. Milyonlarla insan baş verən münaqişələr səbəbindən zorakılığa məruz qalmış, məcburi köçkün vəziyyətinə düşmüş, iqtisadi çətinliklər, ekoloji problemlər və dərin psixoloji travmadan əziyyət çəkmişdir.

---

[31] After August 2008: Consequences of the Russian-Georgian Wars, [Electronic resource] / The Caucasus Institute for Peace, Democracy and Development. - September, 2008. URL:https://www.files.ethz.ch/isn/105102/2009_AfterAugust2008-eng.pdf

Sülh quruculuğu səyləri, hərbi münaqişələrin həlli və regional əməkdaşlıq bu problemlərin həlli üçün vacibdir. İnsan təhlükəsizliyi paradiqmasına nail olmaq çoxtərəfli dialoqa və kompleks həll yollarına əsaslanmalıdır. Məqsəd bir olmalıdır: ümumi təhlükəsizlik. Təhlükəsizlik paradiqmasının davamlı olması üçün xalqlar arasında etimad formalaşmalıdır. Yeni təhlükəsizlik paradiqması daha əhatəli və ədalətli bir sistemə yönəlməlidir. Yəni, ölkələr öz təhlükəsizliyini təmin etmək istəyirlərsə, digər ölkələrin də təhlükəsizliyində maraqlı olmalıdırlar.

Nəticədə, Cənubi Qafqazda hərbi münaqişələr insan təhlükəsizliyinə əhəmiyyətli təsir göstərmiş, zərər çəkən əhali üçün mürəkkəb problemlər yaratmış və regionun inkişafına mane olmuşdur. Bu baxımdan, Cənubi Qafqazda sabitliyin və regional inkişafın dəstəklənməsi üçün insan təhlükəsizliyinin təmin edilməsi çox vacibdir. Lakin, regional əməkdaşlıq cəhdlərinin davamlı olaraq uğursuzluqla nəticələnməsi bir daha sübut edir ki, buna nail olmaq çox da asan olmayacaq. Hərbi münaqişələrin uzunmüddətli nəticələri regionda insanların həyatına təsir etməyə davam edəcək. Buna baxmayaraq, insan təhlükəsizliyinə və fərdlərin müdafiəsinə xüsusi diqqət yetirməklə, region dövlətləri qarşılaşdıqları çoxsaylı böhranları aradan qaldıra bilər və bütün sakinlər üçün daha sabit, təhlükəsiz və firavan gələcəyə doğru irəliləyə bilər.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Qafqazda münaqişələr və onun regional təhlükəsizliyə təsirləri //- Bakı: Geostrategiya, - 2019. № 6,- s. 43-47.
2. Müasir dövrdə insan təhlükəsizliyi qlobal əməkdaşlıq kontekstində // "Heydər Əliyev ideyaları və müasir Azərbaycan" mövzusunda doktorant və dissertantların elmi-praktik konfransının materialları, - Bakı: Aspoliqraf, - 2019, - s. 110-116.
3. Cənubi Qafqazda təhlükəsizliyə yeni təhdid // - Bakı: Dövlət idarəçiliyi nəzəriyyə və təcrübə, - 2020. №1, - s. 313-318.

4. Qloballaşma şəraitində hərbi münaqişələrin yaratdığı humanitar problemlər // “Dövlət idarəçiliyində islahatların yeni mərhələsi” mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransının materialları, - Bakı: Aspoliqraf, - 2020, - s. 123-130.
5. The second Nagorno-Karabakh War as a threat to human security // -Turan-SAM stratejik araştırmalar mərkəzi, - 2021. № 51, - s. 229-234.
6. Environment degradation in the South Caucasus: threat to human life // Международная научно-практическая конференция, - Пенза, - 27 января, - 2023, - с. 227-230.
7. İnsan təhlükəsizliyi və onun konseptual çərçivəsi // - Bakı: Sivilizasiya jurnalı, Avrasiya Universiteti, - 2023, № 4, - s. 84-90.
8. Cənubi Qafqazda regional əməkdaşlığa maneələr // - Bakı: Geostrategiya, - 2023. № 5, - s. 53-56.
9. İnsan təhlükəsizliyi // “Heydər Əliyev Azərbaycanda Gənclər Siyasətinin Banisidir” mövzusunda respublika elmi-praktik konfransının materialları, - Bakı: - 25 dekabr, - 2023, - s. 228-230.
10. Human security as a key factor of international humanitarian law // Politicus, - 2024. № 2, - p. 129-133.
11. Significance of the South Caucasus in Geopolitical and Human Safety Contexts // XIII международная научно-практическая конференция, - Пенза, - 5 октября, -2024, - с. 157-159.
12. İqlim dəyişikliyi və insan təhlükəsizliyi, // “COP29 Beynəlxalq münasibətlərin inkişafı prosesində” (Məqalələr toplusu), - 2024, - s. 250-256.
13. Cənubi Qafqazda hərbi münaqişələrin insan təhlükəsizliyinin siyasi, sosial-iqtisadi və ekoloji aspektlərinə təsiri // - Bakı: Dövlət idarəçiliyi nəzəriyyə və təcrübə, - 2024. № 3, - s. 269-278.
14. Hərbi münaqişələrin regionda insan təhlükəsizliyinə təsirində xarici amillər // - Bakı: - Geostrategiya, - 2024. № 6, - s. 39-43.

Dissertasiya müdafiəsi "10" aprel 2025-ci il saat 11⁰⁰ -da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində təşkil edilmiş FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1001, Bakı şəhəri, Lermontov küçəsi, 74.

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtorefaratın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "06" mart 2025-ci il tarixində müvafiq ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 28.02.2025
Kağızın formatı: A5
Həcm: 39.897
Tiraj: 80